**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№359/5** **28 sentyabr 2023-cü il**

# “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı” barədə

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində Türkiyə təcrübəsindən yararlanmaqla işçi qrupu (işçi qrupunun rəhbəri – Q.Bayramov; üzvlər – N.Talıbov, E.İbrahimov, Q.Əhmədov və R.Cəfərli) tərəfindən hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı”nın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı” bəyənilsin (əlavə olunur).
2. Sədrin elmi-metodik məslələr üzrə müşavirinə (N.Talıbov) və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı” barədə 2024-cü ilin I rübündə seminarın keçirilməsi təmin edilsin.
3. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, auditor və əlaqəli xidmətlərin həyata keçirilməsi zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini təmin etsinlər.
4. Bu qərarın və “Təqdimat”ın mətnləri Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**